İPƏK YOLU, No.4, 2024, səh.105-111
https://doi.org/10.30546/1810-911X.2024.4.126

# İVLİN VONUN "FƏXRİ QILINC" ROMANINDA SOSİAL SATİRANIN TƏZAHÜR FORMALARI

**Ülviyyə Əliyeva**

Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: ulviyya_28@mail.ru

**Xülasə.** Məqalədə İvlin Vo'nun "Sword of Honour" trilogiyasında satira, müharibənin absurdluğunu, bürokratiyanı və hərbi həyatın satirik təsvirinin müxtəlif aspektləri araşdırılır, müharibənin cəmiyyət üzərindəki təsirini və insanların müharibə şəraitində necə qəribə davranışlar sərgilədiklərini üzə çıxarılır. Nəticə olaraq qeyd olunur ki, İvlin Vo'nun "Sword of Honour" trilogiyası, müharibənin absurdluğunu və sosial bürokratiyanın gülünc tərəflərini satirik bir şəkildə təqdim edir. Vo'nun ironik və qara komediya üslubu, müharibənin müxtəlif aspektlərini təhlil edərək, oxuculara cəmiyyətin və müharibənin qeyri-adi və gülünc tərəflərini göstərir. Bu yanaşma, həm də Vo'nun müharibə və insan davranışı ilə bağlı dərin tənqidini ortaya qoyur.

**Açar sözlər:** Satira, müharibə, sosial bürokratiya, cəmiyyət.

## MANIFESTATIONS OF SOCIAL SATIRE IN EVELYN WAUGH'S NOVEL "SWORD OF HONOR"

**Ulviyya Aliyeva**
*Azerbaijan University of Languages, Baku, Azerbaijan*
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** The article explores satire, absurdity of war, bureaucracy and various aspects of ironical depiction of military life in Evelyn Waugh's "Sword of Honor" trilogy. During the research, the impact of war on society and people's strange behavior in war conditions are revealed. In conclusion, it is stressed that Evelyn Waugh's "Sword of Honor" trilogy satirically presents the absurdity of war and the ridiculous aspects of social bureaucracy. Waugh's ironic and black comedy style presents various sides of war, showing readers the unusual and ridiculous aspects of society and war. This approach also reveals Waugh's profound criticism of war and human behavior.
**Keywords:** "Sword of Honor", satire, war, social bureaucracy, soldiers, society.

## ВОПЛОЩЕНИЕ СОЦИАЛЬНОЙ САТИРЫ В РОМАНЕ ИВЛИНА ВО "МЕЧ ЧЕСТИ"

**Ульвия Алиева**
*Азербайджанский Университет Языков, Баку, Азербайджан*
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме.** В статье рассматриваются сатира, абсурдность войны, бюрократия, а также различные аспекты иронического изображения военной жизни в трилогии Ивлина Во "Меч чести". В ходе исследования выявляются особенности влияния войны на общество и необычное поведение людей в условиях войны. В заключении статьи отмечается, что трилогия Ивлина Во "Меч чести" сатирическим образом представляет абсурдность войны и нелепые аспекты социальной бюрократии. Стиль Во, полный иронии и черного юмора, подчеркивает негативные аспекты войны и показывает читателям необычные и нелепые стороны общества. Этот подход также выявляет глубокую критику Во, касающуюся войны и человеческого поведения.
**Ключевые слова:** Сатира, война, социальная бюрократия, общества.

## 1. Giriş

İngilis ədəbiyyatında XX əsrin ən parlaq yazıçılarından biri olan İvlin Vo (Evelyn Waugh) özünəməxsusluğu ilə seçilir. Onun romanları həmişə haqsızlığa, pisliyə qarşı

mübarizəyə səsləyir, qələmə aldığı hadisələr, yaratdığı obrazlar həyat həqiqətləri ilə eynilik təşkil edir. Bu da İ. Vonun şöhrətlənməsində, oxucuların qəlbinə yol tapmasında müstəsna rol oynamışdır.

Onun "Fəxri qılınc" (Sword of Honour) romanı İkinci Dünya Müharibəsi dövründə İngiltərə həyatını və müharibənin cəmiyyət üzərindəki təsirini tənqid edən geniş bir satirik trilogiya şəklində təqdim olunur. "Fəxri qılınc" üç kitabdan ibarət bir seriyadır: "Silahlı adamlar" (Men at Arms (1952)), "Zabitlər və Cənablar" (Officers and Gentlemen (1955)), "Qeyri-şərtsiz təslim" (Unconditional Surrender (1961)). Yekun əsər olan "Fəxri qılınc" trilogiyasında (1952-1965) yazıçı satiranın və lirikanın bir birini tamamlayan və bununla da qeyri-adi yazı manerasını yaradan iki intonasiyanın təbii şəkildə birləşməsinə nail olmuşdur [1].

**Qay Krauçbek obrazının satirik xüsusuiyyətləri**

"Fəxri qılınc" trilogiyası, müharibə zamanı döyüşdə iştirak edən bir neçə xarakterin həyatını təsvir edir. Əsər, müharibə şəraitindəki absurdluqları, bürokratiyanı və cəmiyyətin dəyişən dinamikalarını ironik bir şəkildə açıq şəkildə ortaya qoyur. Vo'nun əsəri, müharibənin özündən daha çox müharibə ilə əlaqəli sosial və inzibati məsələlərə fokuslanır. Əsərin mərkəzində, müharibə və sosial həyatın mənzərəsini təqdim edən bir neçə xarakter var. Ən diqqət çəkən şəxsiyyətlərdən biri, çətinliklərlə üzləşən və öz əxlaqi prinsiplərini qorumağa çalışan Qay Krauçbek adlı baş xarakterdir. Onun müharibədə yaşadığı həyat təcrübələri ironik və qara yumor üslubunda təqdim olunur. Trilogiyanın qəhrəmanı Qay Krauçbek müharibənin sonunda özünün dini və aristokrat illüziyaları ilə vidalaşaraq, "Artıq xeyir əməllərlə məşğul olmaq lazımdır" deyə qəti qərara gəlir. İlk baxışdan Krauçbekin obrazı qeyri-adi və İ. Vo üçün qeyri-tipik görünə bilər. Lakin Qayın qeyri-tipikliyi müəllifin ortaya qoyduğu ideya ilə əsaslandırılmışdır. Yazıçı ingilis cəmiyyətinin qüsurlarını bu cəmiyyətə yad olan insan vasitəsi ilə çatdırmağa cəhd etmişdir. Bu mənada Qayın obrazı özündə erkən romanların sadə qəhrəman obrazının modifikasiyasını əks etdirir. Bu baxımdan əsərdə baş verən hadisələr timsalında katolisizm və aristokratlıq "fil sümüyündən qüllə" vəziyyətinə qədər gəlib çıxır. Bu da qəhrəmanı dünyanın məhvedici təsirindən qorumağa yardım etdi. Qayın romantik illüziya dünyası həqiqətlə toqquşmalı olur, oxucu isə hər addımda qəhrəmanla birgə bu ağrı-acını keçirir.

Kiçik şəhərcik timsalında bütün məmur Rusiyasının obrazını təcəssüm etməyə nail olan dahi Qoqol kimi İ. Vo da ingilis hərbi maşınının nümunəsində burjuaziya - bürokratiya dövlət quruculuğunun xüsusiyyətlərini aşkar edə bilir: korrupsiya, karyerizm, küt tabeçilik və məmurlara tabeçilik, bu halda işçilərin yalnız şəxsi fayda əldə etmək istəyi və cəhdi, onların hərəkətlərinin avtomatizmi və əhəmiyyətsizliyi kimi bütün konykturativ keyfiyyətlər onun əsərində mühüm əhəmiyyət kəsb edir.

"Fəxri qılınc" romanı həcm etibarilə onun əvvəlki əsərlərindən üstün olur. Öncəki əsərlərində təcrübədən keçirmiş kəskin satirik portret yaratmaq bacarığını inkişaf etdirərək yazıçı son əsərində kompozisiya düzgünlüyünə və tamlığına nail olur. "Fəxri qılınc" romanının

satirik personajları iki qrupa bölünə bilər. Birinci qrupa saysız-hesabsız və adətən, adsız zabitlər və generallar aid oluna bilər. Yazıçı onların təsvirinə və hadisələrdə iştirak mövqeyinə çox az və səthi yer versə də simalarının dəqiqliklə ifadə olunması əsərdə yaddaqalan obrazlara çevrilməsinə nail olmuşdur. Adətən, personaj cəmi bir-iki kiçik epizodda iştirak edir, lakin, müəllif "oynaq detal" vasitəsilə dəqiq və tamamlanmış portret təsvir edir. Müəllif mənəvi problemlərin psixoloji ovqatını həm də detallarda ifadə etmişdir.

Məlumdur ki, gerçəklikdə baş verən hər bir əhvalat və ya hadisə saysız-hesabsız elementlərdən təşkil olunmuşdur. Təsvirə cəlb olunan əhvalatları bütün təfərrüatı ilə vermək qeyri-mümkün olduğu üçün baş vermiş hadisəni bədii əsərin korpusuna daxil etmək məqsədilə istifadə edilən üsullardan biri - həm də zəruri hesab olunanı həmin elementlərin yalnız oxucu təxəyyülü üçün lazım olanının seçilməsidir. Jenett "Fiqurlar" əsərində "genişlənmə-sıxılma" fenomenini əhvalatlara (bədii əsərin hüdudlarından kənarda baş verənlərə) münasibətdə bədii hadisədə (süjetdə) həyata keçirilən seçimlə bağlayır [2, s.412]. Təqdim olunmuş əsərdə də bu seçim bədii detallarla yüksək ustalıqla ifadə olunur.

İkinci qrupun personajları trilogiyanın ümumi ideya - bədii fikrini ifadə etməkdə əhəmiyyətli rol oynayır. Bu - Eptorp, Ritçi - Xuk, Trimmer, Ayvor Kler və Ladovikdir. Onların hamısı bu və ya digər şəkildə Qay ilə bağlıdırlar və onların hər birinin obrazı Qayın romantik ideallarına qarşı çıxır. Onlar Qayın istənilən arzusuna və hərəkətinə böyüklük və alicənablıqla bağlı parodiya edirlər. Bu baxımdan əsərdə bu obrazlar öz mövcudluqları ilə əsərin ümumi ideya-məzmun xüsusiyyətlərin üzə çıxarılmasında mühüm əhəmiyyət kəsb edirlər.

Əsərdə təqdim olunan satirik xislətə malik personajlar heç bir şəkildə "alçaq", mənfi fonda, müsbət qəhrəmanın üzərinə kölgə salmaq üçün yaradılmamışdır. Onlar da eyni ideyaya-idealların dağılmasına xidmət edir. Lakin bu digər obrazlardan fərqli tərzdə özünü büruzə verir. Bu obrazların Qayın obrazından keyfiyyət fərqi ondan ibarətdir ki, onlar qətiyyən inkişaf etmir və dəyişilmir. Onlar Qay ilə birgə onun həyat yolunun müəyyən kəsiklərindən keçirlər. Qayın əsl cəhdlərinin və istəklərinin mənasını açıqlamağa yönəldilmiş rollarını oynayaraq, Eptorp kimi tamamilə yox olurlar, yaxud da ki, bir müddət gözdən itirlər ki, sonradan tamamilə gözlənilmədən Ritçi-Xuk kimi yenidən meydana gəlsinlər.

Klounadaların gülünc oyunları zamanı birdən orta əsrlərin oyunbazlarının qüssəli müdrikliyi təzahür edir, onlar öz sahibləri ilə rəqabət aparmağa cəhd edirlər (Eptorp). Gözəl, baş gicəldici karyera xoşbəxtlik gətirmir, əksinə, tam və dönməz fəlakətlə başa çatmış olur (Trimmer). Hətta peşmançılıq onlarda çox acı formalar alır (Ladovik). Bütün bu personajlar çirkindir, ilk baxışdan onlar Qayla təzad təşkil edirlər. Lakin, prinsipcə oxşarlıq anı da mövcuddur - onlardan hər biri bir anlıq Qayın ikinci oxşarıdır, onun hər hansı bir xüsusiyyətinin daşıyıcısıdır. Romanın mövzusunda oxşarların rolu müstəsna olaraq böyükdür. Onların vasitəsilə İ. Vo sanki Qayın müxtəlif həyat dövrlərində daxili vəziyyətini planlaşdırır və büruzə verir.

Əvvəldən axıra kimi özünü və öz keçmiş həyatını uydurmuş Eptorpun faciəli aqibəti Qayın özünün əsl simasını qurban verərək həqiqi əsgər olmaq cəhdlərinin karikatura əksidir.

Əsərin müəyyən hissəsində Qayın bığlarının Eptorpun xoşuna gəlməsi təsvir olunur. Lakin Qay bu hissə qalib gəlir - onun əli ilə baş verən Eptorpun ölümü simvolikdir - o, Eptorpu öz içində öldürür.

Çalışqan karyerist Eptorpun şəxsində İ. Vo əsgər həyatının tərəflərindən birini lağa qoyur - onun küskünlüklə, alçalmalarla dolu eyni şəkilli və məyus istirahət günləri. Qay üçün daha çox özündə müharibənin qəhrəmanlıq tərəfini əks etdirən digər personaj Ritçi-Xukun qarşısında davam gətirmək daha çətindir. Ritçi-Xuk - yaşlı əsgər, cəsur hərbçidir. Lakin böyük paradoks ondan ibarətdir ki, hərbi forma geyinmiş çoxsaylı personajların arasında bəlkə də ən peşəkar əsgər orduda artıq insana çevrilir. Demək olar ki, heç bir insan onun döyüşə başlamaq istəyini onunla bölüşmür.

"Fəxri qılınc" romanında yazıçı Britaniya ordusunun rəhbərliyini kəskin satirik tərzdə əks etdirir və ardıcıl olaraq "centlmen zabitin" obrazını Ayver Kler şəxsində öz taxtı-tacından salır. İngilis ordusunun sadə əsgərləri trilogiyada açıq-aydın simpatiya ilə təsvir edilmişdir - müəllifin zəngin satirik palitrasında onlar üçün heç bir istehzalı çalara rast gəlinmir.

"Fəxri qılınc" trilogiyasında eyni zamanda satiranın və lirikanın gözəl harmoniyasına nail olunur. Trilogiyanm satirik xətti - sanki yazıçının əvvəlki əsərlərində rişxəndə məruz qalan hər şeyi özündə cəmləyir - snobizm, aristokratiyanın silk məhdudiyyətini və mövhumatları: hədsiz qazanc əldə etmək istəyi, burjuaziyanın mənəviyyatsızlığı, məmurların kütlüyü və parodiyalığı, hərbçilərin qorxaqlığı və səriştəsizliyi əsərdə satirik planda oxuculara təqdim olunur. Qayın hərbçi həyatına ümidsizliyi çox əsaslı görünür - onu uğursuz bədheybətlər əhatə edir və ondan əl çəkmir.

Yazıçı öz personajlarının qəlblərini son dərəcə incəliklə tədqiq edir, bu Britaniya hərbi maşınının itaətkar vintlərində onlarda insaniyyətlikdən qalan məqamları üzə çıxarmağa çalışır. O, təkcə bu bədheybətləri komik və kənarlaşdırıcı xüsusiyyətlərə aid etmir, həmçinin, onların qüsurlarının əsasını açıqlayır, yaranma səbəblərini üzə çıxarır.

**"Fəxri qılınc" əsərinin satirik personajları**

"Fəxri qılınc" əsərinin digər satirik personajları ziddiyyətli xarakterə malikdirlər - onlar satirik "dominant" vasitəsi ilə yaradılsa da oxucuda bəzən mərhəmət və rəğbət hissi doğururlar. Eptorp obrazı özü-özlüyündə komik və qəribədir, lakin ona Ritçi - Xuk ilə mübahisədə rəğbət göstərməmək olmaz. Bəzən isə rəğbət hissi əsaslı olaraq antipatiya ilə əvəz olunur. Lakin Eptorpun digər personajlarla qarşılıqlı əlaqədə xarakterini açıqlayaraq, İ. Vo göstərir ki, o, zülmkar və ağılsız doğulmamışdır. Onun hamıya sonsuz əmrləri əslində zəif insanın özünü bir anlıq güclü və hakimiyyətə malik olan insan kimi hiss etmək, taptalanmış insan ləyaqətinə görə dünyada qisas almaq cəhdidir. Bu baxımdan qeyd etmək yerinə düşər ki, Adler tərəfindən işlənmiş yetərsizlik kompleksi nəzəriyyəsi XX əsr ədəbiyyatşünaslıq fikrinə müəyyən təsir göstərmişdir. Alman alimi 1907-ci ildə yazdığı "Orqanların çatışmazlıqları haqqında" əsərində göstərmişdir ki, insan bədənində mövcud olan anadangəlmə anomaliyalar insanın həyatda bu və ya digər sahədə uğur əldə etməsinin stimulu ola bilər. Bu halda insanın psixikasında bədən

orqanlarının nöqsanı ilə bağlı meydana gələn çatışmazlığın əvəzini ödəmək üçün xüsusi mexanizmlər yaranır. Müəyyən konkret məqsədin əldə olunmasına yönəlmiş insan fəaliyyəti ilə bağlı olan çatışmazlığın kompensasiyası prosesi müəyyən istiqamət kəsb edir.

"Cismani natamamlıq - kompensasiya - məqsəd (müsbət nəticə)" sxeminə müvafiq olaraq insan fəaliyyətinin cərəyan etməsini tarixi şəxslərin timsalında nümayiş etdirmək olar [3]. Belə ki, Demosfen anadangəlmə pəltək idi, lakin psixoloji əvəzolunma mexanizmi sayəsində son nəticə etibarilə antik Yunanıstanın ən möhtəşəm natiqinə çevrildi. Şillerin zəif görmə qabiliyyəti onun dramaturq istedadının inkişafına təkan verdi. Eşitmə qabiliyyətindəki nöqsanlar nəticəsində Bethoven dünya simfonik musiqisinin ən görkəmli nümayəndələrindən birinə çevrildi.

İnsan fəaliyyətinin belə bir müsbət yönümdə inkişafı fiziki çatışmazlıq nəticəsində insanda yaranan yetərsizlik hissi ilə əvəz olunmasının yollarından biridir. Lakin bu halda tamamilə başqa bir inkişaf yolu da ola bilər. Bəzi hallarda fiziki çatışmazlıqlar artıq uşaq yaşlarından insanda ətraf dünyaya düşmənçilik hissi doğurur. Bu cür insan daim dünyada təhlükə gözləyir, onunla üz-üzə gələn adamların onu fiziki çatışmazlığına görə təhqir edəcəyini gözləyir, var qüvvəsi ilə müqavimət göstərməyə çalışır.

Alman alimi yalnız bədən naqislikləri ilə bağlı insanlarda formalaşan yetərsizlik hissini təhlil etməklə kifayətlənmədi. O, belə bir fakta da diqqət yetirirdi ki, heyvanlardan fərqli olaraq insan anadan olandan zəif və aciz məxluqdur. Məhz buna görə də artıq inkişafının ilkin mərhələlərində natamamlıq hissi keçirir. Həyatının başlanğıcında hər hansı bir uşaq ailədə tabe vəziyyətində olur və daim valideynlərinin həm fiziki, həm də psixoloji yardımına ehtiyac duyur. Məhz buna görə də inkişafının ilkin mərhələlərindən başlayaraq uşaq natamamlıq hissi keçirir və bu onda müəyyən əvəzolunma mexanizminin yaranmasına və həyatda öz strategiyasını müəyyənləşdirilməsinə təkan verir. Beləliklə A. Adlerin fikrincə, yetərsizlik hissi hər hansı bir uşağa öz naqisliyini əvəz etməyə imkan yaradan hərəkətverici qüvvədir. Bu baxımında Adlerin "yetərsizlik" nəzəriyyəsini bu romandakı obrazların həyatında izləmək mümkündür. Eptorp obrazının həyatını izlədikdə onun daxilində baş verən yetərsizliyin hakimiyyət gücü ilə əvəz olunmasının şahidi oluruq.

Əsərdə Ritçi-Xukun obrazı, Eptorpun obrazı kimi çoxtərəflidir. O, Eptorpun "xəzinəyə" görə mübarizə epizodlarında komikdir və nifrətə layiqdir. O, öz amansız nəzəriyyələrini şərh edəndə və onları həyata keçirən zaman da nifrət doğurur. Bu adı çəkilən cəsur insanın manyaka çevrilmiş cəmiyyətin təsiri altında mənasız və ölüm epizodunda daha da aydın olur.

Hətta açıq-aydın xoşagəlməz Trimmerdə İ. Vo şəfqət hissi doğuran nə isə aşkarlayır: Trimmer sonsuz dərəcədə Virciniyaya vurulmuşdur, onun üçün isə Trimmer ilə münasibətlər təsadüfi eşqbazlıq idi. Ədalətsizlik və əxlaqsızlıq dünyada hökm sürür, lakin yazıçı istəmir ki, onların qalibiyyəti tam və dönməz olsun - ömürlük lənət kimi Trimmer Virciniyaya qarşı sonsuz məhəbbətini içində daşımalı olacaq. Bu onun qeyri-düzgün yol ilə əldə etdiyi şöhrətə görə ödəyəcəyi qiymətdir. Digər "iblis" də öz uğuruna görə tənhalıq və qorxu ilə ödəməli olur - qatil

və psixopat Ladovik. Bu tam əxlaqsız insanın qəlbində kimisə sevmək və kiməsə inanmaq kimi rəfedilməz, hətta xəstə tələbat mövcuddur.

Satirik personajlarına qəmli və şəfqət doğuran xüsusiyyətlər verərək, yazıçı heç də xüsusiyyətlərin ziddiyyətini yumşaltmır, o, xarakterin inkişaf dialektikasına nail olmağa və onu düzgün əks etdirməyə çalışır.

İ. Vonun XVIII əsrin ingilis romanı ilə əlaqəsi, xüsusilə də, Smolletin, ideya - tematik və bədii səviyyələrdə təzahür edir. Lakin, burada fəlsəfi aspekt də mövcudur. İ. Vonun romanlarının səhifələrində hiss olunan dünyanın harmoniyasızlığı ilk növbədə etik harmoniyanın olmamağıdır və yalnız bunun nəticəsi kimi sosial qüsurlar da yaranır.

Müəyyən dərəcədə bu Qay Krauçbek üçün də ədalətlidir: dinə və aristokratiya ideallarına qarşı ümidsizlənərək qəhrəman və görünür, müəllif özü də yalnız maarifçilik idealında - şəxsi həyatın harmoniyasında və xeyir əməllərin yerinə yetirilməsində dayaq nöqtəsini tapırlar.

Təqdim olunmuş trilogiyada İ. Vonun yaradıcılığında ilk dəfə olaraq tarixi real şəkildə əks etdirmək cəhdi də “Fəxri qılınc” əsərini müharibədən sonra ingilis nəsrinin ən görkəmli və gözə çarpan təzahürlərindən biri hesab etmək imkanını verir.

Qayın hərbçi həyatına ümidsizliyi çox əsaslı görünür - onu uğursuz bədheybətlər əhatə edir və ondan əl çəkmir.

Yazıçı öz personajlarının qəlblərini son dərəcə incəliklə tədqiq edir, bu Britaniya hərbi maşınının itaətkar vintlərində onlarda insaniyyətlikdən qalan məqamları üzə çıxarmağa çalışır. O, təkcə bu bədheybətləri komik və kənarlaşdırıcı xüsusiyyətlərlə təsvir etmir, həmçinin, onların qüsurlarının əsasını açıqlayır, yaranma səbəblərini üzə çıxarır.

“Fəxri qılıncnın” bir çox satirik personajları mürəkkəb hisslər doğurur - onlar satirik “dominant” vasitəsi ilə yaradılmışdır, Eptorp da komik və qəribədir, lakin ona Ritçi - Xuk ilə mübahisədə şəfqət göstərməmək olmaz. Şəfqət hissi əsaslı olaraq antipatiya ilə əvəz olunur. Lakin Eptorpun digər personajlarla qarşılıqlı əlaqədə xarakterini açıqlayaraq, İ. Vo göstərir ki, o, zülmkar və ağılsız doğulmamışdır. Onun hamıya sonsuz əmrləri - zəif insanın özünü bir anlıq güclü və hakimiyyətə malik olan insan kimi hiss etmək, tapdalanmış insan ləyaqətinə görə dünyada qisas almaq cəhdidir.

**Nəticə.** “Fəxri qılınc” trilogiyası İ. Vonun yekun və ən əhəmiyyətli əsəridir. Burada satiranın və lirikanın gözəl harmoniyasının təcəssümünə nail olunur. Trilogiyanın satirik xətti - sanki yazıçının əvvəlki əsərlərində rişxəndə məruz qalan hər şeyi - snobizm, aristokratiyanın silk məhdudiyyətini və mövhumatları: hədsiz qazanc əldə etmək istəyi, burjuaziyanın mənəviyyatsızlığı, məmurların kütlüyü və parodiyalılığı, hərbçilərin qorxaqlığı və səriştəsizliyi burada vahid obrazlar sistemi ilə təcəssüm olunmuşdur. İ. Vonun romanları hal-hazırda da öz aktuallığı ilə seçilir və oxucuların rəğbətini qazanmaqda davam edir.

## Ədəbiyyat

1. Waugh E. (1994), The Sword of Honour Trilogy. Everyman's Library, 711.
2. Жерар Ж. (1998), Фигуры. В 2-х томах. Москва: Изд-во им. Сабашниковых, 944.
3. Адлер А. (2014). Наука о характерах. Понять природу человека. Академический проект, 243.